# Dünyanın futbol auditoriyasından maraqlı olaylar



*Mobil İSMAYILOV*

*(əvvəli qəzetimizin 21-ci sayında)*

Tanınmış məşqçi Visente Del Boskenin məşqçilik fəaliyyətində cəmi bir dəfə sərəncamında olan futbolçu onun "sözünə baxmamışdı". Bu ÇL-in qrup mərhələsinin oyunları



çərçivəsində Madrid "Real"ı ilə Dortmund "Borussiya"sı arasında İspaniya paytaxtında keçirilən oyunda baş vermişdi. Həmin oyunun başa çatmasına 4 dəqiqə qalmış "Real"ın baş məşqçisi Del Boske Fernando Moriyentesi yanına çağıraraq, meydana çıxacağını bildirib. Amma Moriyentes oyunun sonunda meydana daxil olmaqdan imtina edərək, üstəlik baş məşqçini də təhqir etmişdi. "Real"ın və İspaniya yığmasının forvardı sonradan açıq şəkildə mətbuat vasitəsi ilə baş məşqçidən üzr istəmişdi. Del Boske isə bildirmişdi ki, futbolçuya heç bir cəza verməyəcək. Amma "Real" rəhbərliyi məsələni elə-belə buraxmayaraq, Moriyentesi 15 min avro məbləğində cərimələmişdi.

* * *

Karlo Ançelotti qərargahında ən çox köməkçisi olan məşqçi kimi tanınır. Əvvəllər də belə olub, indi də belədir.

Birinci dəfə "Real"ın sükanı arxasına keçəndə onun 17 (!) köməkçisinin olması ispanlara çox təəccüblü təsir bağışlayırdı. Lakin ispan mütəxəssislərini ən çox qıcıqlandıran Ançelottinin oğlunu və kürəkənini öz yanına işə götürməsi idi. Bununla kifayətlənməyən baş məşqçi yaxın dostu və daimi köməkçisi olan Covanni Maurinin oğlunu da qərargahında işlə təmin etmişdi. Onun oğlu və kürəkəni fiziki hazırlıq üzrə məşqçi heyətində çalışırdı. Maurinin oğlu isə tibbi personalda işləyirdi. Ona görə də ona qohumbazlığa görə irad tuturdular. Hətta mediada qınaq obyektinə də çevrilmişdi. Məlum olduğu kimi o dövrdə təcrübəli mütəxəssisin iki əsas köməkçisindən biri Zidan idi.

* * *

2017-ci il iyulun 29-da ABŞ-nın Mayami şəhərində baş tutmuş "Barselona" və "Real" komandaları arasındakı oyunun biletinin astronomik məbləğdə olmasını yəqin ki, xatırlayanlar vardır. Biletlər əslində mart ayında satışa çıxarılmışdı. Həmin vaxt 20 dəqiqə ərzində bütün biletlər satılmışdı. Sonradan azarkeşlər yenidən "nəhənglərin" görüşünə bilet əldə etmək imkanı qazandılar. "Təkrar bazar" adı altında satılan biletlərin qiyməti 280 dollardan başlayırdı. Ən bahalı bilet isə nə az, nə çox - düz 10 min dollar idi. Elə o vaxtdan "10 min dollarlıq bilet" ifadəsi hələ də yaddaşlarda qalıb.

* * *

Futbol - karyera pilləkənində ən yaxşı vasitədir. Məlum olduğu kimi sonradan tanınmış müğənnilərə çevrilmiş Xulio İqlesias ("Real" Madrid), Zurab Sotkilava ("Dinamo" Tbilisi), Vinni Cons ("Çelsi", London), İrakli Pirtsxalava ("Lokomotiv" Moskva) məhz futboldan başlayıb, musiqi aləminə qədəm qoymuşlar. Belələrinə meydandan birbaşa səhnəyə gələnlər deyirlər.

* * *

Stadionlarda tribunaların uçması və insan tələfatı futbol tarixinin ən xoşagəlməz və kədər doğuran xəbəri olduğundan həmişə həyəcan, təlaş və qorxu yaradıb. Yaxşı ki, son illər belə xəbərləri eşitmirik. Sonuncu dəfə Avropada 2018-ci sentyabrında belə bir hadisənin baş verməsi məlumatı yayıldı. Belə ki, İspaniya çempi-



onatının 7-ci turunda keçirilən "Eybar"- "Sevilya" matçı zamanı "Munisipal de İpurua" stadionunun bir hissəsində uçma prosesi baş vermişdi. Bədbəxt hadisə ikinci hissənin ortalarına təsadüf etmişdi. "Sevilya"nın vurduğu qolun qeyd olunması zamanı tribunanın dayaq və hasar hissəsinin aşması nəticəsində qonaq komandanın azarkeşləri meydana səpələnmişdilər. Hadisə zamanı xəsarət alanlar olsa da, xoşbəxtlikdən ölüm faktı qeydə alınmamışdı. Ağır yaralananlar isə tibbi yardım göstərilməsi üşün xərəklə meydandan çıxarılmışdılar.

* * *

Karnavallar ölkəsi Braziliya həmişə diqqət mərkəzində olub. Elə bu gün də belədir. Futbol tarixində daim öz imzalarını qoyan məşhur futbolçuların vətəni. Braziliya futbolu, Braziliya qəhvəsi və bir də qeyri-adi rəqs edən Braziliya qadınları... Qəhvə içib onlara baxmamaq sadəcə mümkün deyildir. Braziliyadan təsadüfən söhbət açmamışam. Bu ekzotik ölkə ilə bağlı maraqlı bir olayı da qeyd etmək yerinə düşər. Braziliyada nəinki stadionlarda, eləcə də küçələrdə, həyətlərdə böyüklər, gənclər, hətta uşaqlar dayanmadan topla sanki rəqs edirlər. Özü də saatlarla. Karnavallar ərəfəsində hər yanda bayram əhvali-ruhiyyəsi müşahidə olunur. Müxtəlif yaşda olan insanlar yorulmaq bilmədən oxuyub, oynayırlar. Elə təəssürat yaranır ki, bu ölkənin əhalisi futbolsuz və karnavallarsız yaşaya bilməz. Axı, yüksək enerji ilə rəqs etdikləri kimi də elə futbol oynayırlar. Təbii suallar ortaya çıxır: Bu qədər güc, enerji hardandır? Əlbəttə, əhalinin xarakterik xüsusiyyətlərini nəzərə almaq lazımdır. Eyni zamanda haqlı olaraq düşünürsən ki, belə aktiv olmaq üçün onlar nəsə qəbul edirlər. Doğrudur. Düşüncələrimizdə yanılmırıq. Bu ölkədə insanlar gün ərzində bir-iki dəfə xüsusi bitkilərdən hazırlanmış paketləri qaynayan suya ataraq 20 dəqiqədən sonra içirlər. Bu üsul onlara gümrahlıq, yüksək əhvali-ruhiyyə, əlavə güc verir. Elə futbolçular da belə vasitələrdən istifadə edirlər.

* * *

Braziliyalı superulduz Ronaldo futbol aləminə qədəm qoyandan başlayaraq həmişə öz təvazökarlığı ilə seçilməyə çalışırdı. Deyirlər ki, futbol dahisi hətta milyarderə çevriləndə də dəyişmədi. Onun sadəliyini və təvazökarlığını əslində mavi ekranlardan da sezmək mümkün idi. Deyilənlərin təsdiqi kimi bir epizodu qeyd etmək yerinə düşər. 1999-cu il katoliklərin milad bayramı ərəfəsində Ronaldo nəhayət sevgilisi Milen Dominqusla münasibətlərini rəsmiləşdirmək qərarına gəlir. Futbol topunun jonqlyorluğu üzrə keçmiş dünya çempionu olan Milen artıq ana olmağa hazırlaşırdı. Nikah mərasimi Rio-de-Janeyroda baş tutmuşdu. Ronaldo mərasimin sadə formada keçirilməsi üçün sevgilisinin razılığını almışdı. Nəzərdə tutulduğu kimi nikahagirmə tədbirinə yalnız məhdud sayda dəvətolunanlar qatılmışdı. Yəni qonaqlar cütlüyün qohumları və tanışlarından ibarət olub. Jurnalistlər ümumiyyətlə, tədbirə buraxılmamışdı. Təntənəli mərasimə dünyanın məşhur futbol ulduzu cəmi 8-9 min dollar sərf etmişdi. Ronaldo sonradan bildirmişdi ki, Braziliya kimi kasıb ölkədə həddindən artıq dəbdəbəli toy mərasimi keçirməsini özünə rəva bilməmişdi. Onsuz da bu ölkədə hamı tərəfindən sevilir və hər yerdə rəğbətlə qarşılanır. Bahalı maşınları, geyimləri gizlətmək çətindir. Amma toy mərasimini sadə şəkildə keçirmək mümkündür.

Yeri gəlmişkən sonda dünya şöhrətli futbol milyarderinin toy mərasimi ilə bizdəki həddindən artıq dəbdəbəli və qıcıqlandırıcı toyların müqayisəsini oxucuların öhdəsinə buraxıram (!)

* * *

Bəzən futbol fanatları həm də müxtəlif vaxtlarda baş vermiş



xoşagəlməz hadisələri yaddan çıxarmırlar. 2011-ci ildə ÇL-in 1/8 final mərhələsində "Milan" - "Tottenhem" qarşılaşmasında italiyan Qattuzo idmançıya yaraşmayan hərəkətlərə yol vermişdi. Azarkeşlər həmin gün stadionda baş verənləri xatırladıqlarına görə mövzunu geniş şərh etmək fikrində deyiləm. İllər keçdi 2021-2022-ci illər mövsümündə "Tottenhem"in rəhbərliyi Poçettinonun gedişindən sonra boş qalmış baş məşqçi postuna namizədlər axtarmağa başladılar. Rəhbərlik ən münasib namizəd kimi Qattuzonun üzərində dayandı. Hətta italiyan mütəxəssis Londona dəvət olundu və ilkin razılıq əldə edildi. Bundan xəbərdar olan komandanın azarkeşləri bu təyinata ciddi şəkildə etirazlarını bildirdilər. Onlar 2011-ci ildə baş vermiş hadisəni klub rəhbərliyinin yadına saldılar. Nəticədə komandanın rəsmiləri azarkeşlərlə razılaşmağa məcbur oldu. Kinli fanatlar Qattuzonu görmək belə istəmədiklərini bildirdilər. Bundan sonra Konte komandanın baş məşqçisi təyin oldundu. Göründüyü kimi, taleyin ironiyası da tarixi bir münaqişəyə görə Qattuzoya kömək etmədi.

* * *

Yəqin ki, yaşlı nəslin futbol həvəskarları SSRİ dövründə nadir səs tembrinə və fərqli, bəlkə də qeyri-adi səslənən danışıq aktsentinə malik teatr artisti və futbol şərhçisi Kote Maxaradzeni yaxşı xatırlayırlar. Onun haqqında çox deyilib, çox yazılıb. Barəsində bir neçə dilə tərcümə olunmuş kitablar da işıq üzü görüb. Ona görə də mən oxucularda maraq yaradacağını nəzərə alaraq onun ilk dəfə futbol şərhçiliyinə necə başlaması və reportaj zamanı istifadə etdiyi bir neçə ifadəni yada salmaqla kifayətlənəcəyəm. Reportajların həmin cümlələri futbol tarixinə əbədi həkk olunub.

1960-cı ildə Tbilisidə yerli "Dinamo" ilə Daşkəndin "Paxtakor" komandası arasında keçirilən oyunun reportajını həmin dövrün məşhur şərhçisi Sinyavski aparmalı idi. Matçın başlamasına az qalmış məlum olur ki, Sinyavski "yoxa çıxıb". Onu tapmadıqlarına görə Moskvaya məlumat verilir. Yeri gəlmişkən qeyd edim ki, Sinyavskidə belə "hallar" olurdu. Ələlxüsus da Tbilisi kimi bir şəhərdə "hərtərəfli istirahəti" sevən şərhçinin qəflətən "itməsi" yəqin ki, təəccüb doğurmamışdı. Moskvadan tanınmış şərhçi Nikolay Ozerov Maxaradzeyə zəng vurub ondan xahiş edir ki, çətin vəziyyətdən bizi xilas etsin. Bir təhər də olsa, oyunun reportajını aparsın. Kote Maxaradze etiraz edərək deyir ki, bu aktsentlə nə reportaj?! Ozerovun israrlı xahişindən sonra Maxaradze razılaşmağa məcbur olur. Beləliklə, o gündən başlayaraq Maxaradze ümumittifaq futbol şərhçisinə çevrilir.

* * *

Kote Maxaradzenin reportajlar zamanı işlətdiyi maraqlı ifadələrin siyahısı zəngindir. Hətta elələri də vardır ki, heç Maxaradze onları deməyib. Amma harda Kote varsa, oradada yumor var. O, çox sevildiyinə görə bəzi deyimlərə də əlavələr edilərək, cümlələr onun ünvanına yazılırdı. Beləliklə, Kote Maxaradzeyə məxsus ən maraqlı reportaj ifadələri:

"Hakim növbəti oyunçunu da meydandan qovur. Deyəsən bu qovmaları ştanından tapıb çıxarır";

"Nə qədər ki, top hələlik havadadır, qısaca heyətlər barədə";

"Sizcə bu futbolçu ünvanı səhv salmayıb ki?";

"Bu baş formasının sahibi başı ilə heç qol vura bilər?";

"Bu hakimə gürcü şərabı vermək lazımdır. Hiss olunur ki, ehtiyacı var";

"Futbolçunun fərqlənmək şansları, ehtimalları ola bilərdi, amma heyf ki məşqçi mane olub, onu əvəz etdi";

"Top müdafiəçinin başına bərk dəydi. Əgər onun normal başı varsa, ola bilsin ki, beyin silkələnməsi olsun".



Kote Maxaradze 75 illik yubileyini təntənəli surətdə qeyd etdikdən sonra vəfat etdi. Dostları zarafatla deyirdilər ki, yubileyində üç ölkənin - Gürcüstan, Rusiya və Ukrayna prezidentlərindən təbrik alan yeganə şərhçidir.